# Lənkəran teatrı 131-ci mövsümü "Vəfalı Səriyyə" ilə açıb

Lənkəran Dövlət Dram Teatrı oktyabrın 20-də – təxminən ilyarımlıq fasilədən sonra pərdələrini sənətsevərlər üçün açaraq 131-ci mövsümünə başlayıb.



Teatrın direktoru Tofiq Heydərov çıxış edərək yeni mövsümdə kollektivin qarşısında duran yaradıcılıq planlarından danışıb. Bildirib ki, Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru, Xalq artisti Firudin Qurbanovun rəhbərliyi ilə yaxın vaxtlarda teatrda osetin dramaturqu Georgi Xuqayevin "Varlı ev" tamaşasının məşqlərinə başlanılacaq. Gənc rejissor Tərlan Abdullayev isə Xanımana Əlibəylinin şeirləri əsasında səhnələşdirdiyi "Ləpələrin nağılı" tamaşasının son məşqlərini aparır. Bu səhnə əsəri noyabrın əvvəllərində azyaşlı tamaşaçıların ixtiyarına veriləcək. Yeni mövsümdə sənətsevərlərə digər yeni səhnə əsərləri də təqdim ediləcək.

Açılış mərasimindən sonra Cəfər Cabbarlının "Vəfalı Səriyyə və ya göz yaşı içində gülüş" tamaşası nümayiş etdirilib. Maraqla izlənilən tamaşanın quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Ramazan Ağayev, bəstəkarı Eldar Salayevdir. Rolları Aynur Əhmədova (Səriyyə), Səyad Əliyev (Rüstəm), Xalq artisti Qabil Quliyev (Həmzə), Əməkdar artist Sucəddin Mirzəyev (Səfər), Qızılgül Quliyeva (Çimnaz), Əbülfəz Axundov (Axund), Tərlan Abdullayev (Məhərrəm), Emin Fərzullayev (Qurban), Miraslan Ağayev (Molla Möhsün), Təranə Fərəcova (Hüsniyyə) və Amil İbrahimli (Əsgər) ifa

Mədəniyyət.- 2021.- 27 oktyabr.- S.5.